*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (4) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:20.04.2024*
*Kabul tarihi |Accepted:15.06.2024*
*Yayın tarihi |Published:25.07.2024*

**İkram Ağasiyev**

*https://orcid.org/0000-0003-0801-6683*
*Professor, doctor of historical sciences, Director of the "Soviet period history of Azerbaijan" department of the History Institute named after A. A. Bakikhanov of the Azerbaijan National Academy of Sciences, Azerbaijan, ikramagasiyev@mail.ru*

**Aybeniz Osmanova**

*https://orcid.org/0000-0002-6809-0618*
*Azerbaijan National Academy of Science Scientific employee of the Department of 'History of the Soviet Period of Azerbaijan' of the Institute of History, Azerbaijan, skazka-alin@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Ağasiyev, İ. ve Osmanova, A. (2024). Ermənistan SSR-in Azərbaycan SSR-ə Qarşı Ərazi İddialarında Qaragöl Məsələsi. *Akademik Tarih ve Düşünce Dergisi*, *11* (4), 2497-2512.

# Ermənistan SSR-in Azərbaycan SSR-ə Qarşı Ərazi İddialarında Qaragöl Məsələsi

***Öz***

*Məqalə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına həsr olunmuşdur. Müəlliflər qeyd edirlər ki, 1920-ci ilin yazında Azərbaycanda sovet hakimiyyəti quruldu. Ermənistanda isə sovet hakimiyyəti populyar deyildi. Ermənistanı öz siyasi blokuna cəlb etmək üçün Sovet Rusiyası ona yeni ərazilər vəd etdi. Yeni ərazilər dedikdə Azərbaycan əraziləri nəzərdə tutulurdu. 1920-ci ilin noyabrından başlayaraq Azərbaycan əraziləri mərhələ - mərhələ Ermənistan Sovet respublikasına verilməyə başladı. Azərbaycanın sərhəd bölgələrindən (Zəngəzur, Naxçıvan, Gədəbəy, Qazax, Tovuz və sair) ərazilərin bir hissəsi Ermənistanın tərkibinə verildi. Bütün bu proseslər Moskvanın diqtəsi ilə həyata keçirilirdi və Azərbaycandan razılıq alınmırdı.Azərbaycandan qanunsuz olaraq alınıb Ermənistana verilən ərazilərdən biri də Qaragöl və gölün ətrafındakı ərazilər olmuşdur. 1929-cu illərədək Azərbaycan ərazisi kimi tanınan bu torpaqlar 1930-cu illərdən SSRİ rəhbərliyinin göstərişi ilə Ermənistana verildi. Lakin Qaragöl ətrafında yaşayan Azərbaycan əhalisi Mərkəzin bu qərarı ilə razılaşmadılar və uzun illər öz torpaqları uğrunda mübarizə apardılar. 1991-ci ildə Ermənistan Qarabağı və Qaragöl ətrafı əraziləri tam işğal etdi. 2020-ci ildə Azərbaycan Ordusunun Ermənistan üzərində qələbəsindən sonra Qarabağ işğaldan azad olundu. 2021-*

BY NC
Creative Commons Licence

*ci ilin may ayında Azərbaycan Ordusu Qaragöl ətrafı əraziləri azad etdi və beləliklə, tarixi ədalət bərqərar oldu.*

***Açar sözlər:*** *Qaragöl, Azərbaycan SSR, Ermənistan SSR, Zəngəzur, ərazi iddiaları*

# The Karagöl Issue in the Territorial Claims of the Union of Soviet Socialist Republics of Armenia (SSR) against the Union of Soviet Socialist Republics of Azerbaijan (SSR)

***Abstract***

*The article is devoted to territorial claims of Armenia against Azerbaijan. The authors note that in the spring of 1920, Soviet power was established in Azerbaijan.The Soviet government was not popular in Armenia. In order to attract Armenia to its political bloc, Soviet Russia promised it new territories. When we say new territories, we mean the territories of Azerbaijan. Starting from November 1920, the territories of Azerbaijan were gradually handed over to the Armenian Soviet Republic. A part of the territories from the border regions of Azerbaijan (Zangezur, Nakhchivan, Gadabey, Gazakh, Tovuz and others) was given to Armenia. All these processes were carried out under the dictates of Moscow, and no consent was obtained from Azerbaijan. One of the territories illegally bought from Azerbaijan and given to Armenia is Karagöl and the territories around the lake. These territories, which were known as the territory of Azerbaijan until 1929, were given to Armenia in the 1930s by the order of the USSR leadership. However, the Azerbaijani population living around Karagöl did not agree with this decision of the Center and fought for their land for many years. In 1991, Armenia completely occupied Karabakh and the surrounding areas of Karagöl. After the victory of the Azerbaijani Army over Armenia in 2020, Karabakh was freed from occupation. In May 2021, the Azerbaijani Army liberated the areas around Karagöl, and thus historical justice was established.*

***Keywords:*** *Karagöl, Azerbaijan SSR, Armenian SSR, Zangezur, territorial claims*

## Giriş

SSRİ-nin dağılmasından dərhal sonra Ermənistan və Azərbaycan arasında sərhədlərin demarkasiyasına başlamaq mümkün olmadı. 1988-1994-cü illərin Birinci Qarabağ Savaşı nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycanın 20% ərazilərini işğal etdi və Azərbaycanın qərb sərhədinin böyük hissəsinə nəzarəti ələ keçirdi. 2020-ci ilin payızında Azərbaycanın Ermənistan üzərində Zəfərindən və Rusiyanın da iştirakı ilə əldə olunan Razılaşmaya əsasən Qarabağda 44 günlük müharibə başa çatdıqdan sonra kifayət qədər çətin siyasi və hətta coğrafi şəraitə baxmayaraq demarkasiya prosesinin başlanması üçün zəmin yarandı. 2020-ci il 10 noyabrda üçtərəfli Razılaşma bağlandıqdan sonrakı dövrdə də Azərbaycana məxsus ərazilərin bir qismi yenə də Ermənistanın nəzarətində qalmaqda idi. Azərbaycan tərəfinin sərhədlərin delimitasiya və demarkasiya olunmasına dair Ermənistan tərəfinin mənfi yanaşması fonunda Azərbaycan öz qanuni ərazilərində nəzarəti ələ almaq üçün bir neçə lokal xarakterli hərbi əməliyyatlar keçirməyə məcbur oldu. 2021-ci il may ayının 14-

də Azərbaycan Silahlı Qüvvələri Qaragöl ətrafı əraziləri öz nəzarətinə götürdü. Qeyd edək ki, Azərbaycan ordusunun bu əməliyyatı sərhədlərin müəyyənləşdirilməsi prosesi kimi beynəlxalq hüquq əsasında həyata keçirilmişdir.

Qaragöl bölgəsində Azərbaycanın suveren hüquqlarının bərpa olunmasını Ermənistan tərəfi "Ermənistana təcavüz" kimi qiymətləndirir və bəzi Azərbaycana dost olmayan KİV, ermənipərəst dairələr də bu əsassız ittihamları dəstəkləyirlər (Pashinyan nazval vzryvoopasnoy situatsiyu vokrug Chernogo ozera bliz Azerbaydzhana). Məsələ ilə bağlı mütəxəssislərin fikirləri də müxtəlifdir. Belə ki, Rusiya Elmlər Akademiyasının professoru, dağ coğrafiyası üzrə ixtisasçı Aleksey Qunya "Qafqazskiy uzel" saytına müsahibəsində demişdir ki*, "mübahisəyə səbəb olan ərazi bir neçə gölün yerləşdiyi yüksək dağlıq ərazidə, düz iki ölkənin sərhədində yerləşir*". Onun sözlərinə görə, *"SSRİ Baş Qərargahının milyon miqyaslı xəritələrində Qaragöl Azərbaycan ərazisində, daha böyük miqyaslı topoqrafik xəritələrdə isə gölün böyük hissəsi artıq Ermənistan ərazisində göstərilmişdir"* (Chto i pochemu proiskhodit na granitse Azerbaydzhana i Armenii). Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktor müavini, Qafqaz üzrə ekspert, Aleksandr Skakovun fikrincə isə "Ermənistan və Azərbaycanın sərhədlərini müəyyən etməyə imkan verən Sovet dövrünün vahid xəritəsi sadəcə olaraq yoxdur. Sovet xəritələri çox fərqlidir və bu, böyük problem yaradır*: "Hər tərəf müəyyən bir ərazinin mənsubluğunu sübut etmək üçün özünə sərfəli olan sovet xəritəsindən istifadə edir"* (Chto i pochemu proiskhodit na granitse Azerbaydzhana i Armenii). Bu gün ermənilər Qaragölü "sərhəd gölü" kimi təqdim etməyə, 70 faizinin Ermənistana, 30 faizinin isə Azərbaycana məxsus olmasını göstərməyə çalışırlar. Lakin tarixi faktlar sübut edir ki, Qaragöl sərhəd gölü deyil və məqalənin əsas məqsədi tarixi sənədlər əsasında bu məsələni araşdıraraq həqiqəti üzə çıxarmaqdan ibarətdir.

### 1.Qaragölün coğrafi mövqeyı barədə

Azərbaycan ərazisində Qaragöl adında bir neçə göl mövcud olduğundan Laçın rayonu ərazisində yerləşən və uzun illər Ermənistanla sərhəd mübahisələri obyekti olan Qaragölün başqalarından fərqləndirmək üçün İşıqlı Qaragöl kimi də adlandırırlar. Böyük İşıqlı dağının ətəyində, vulkanın kraterində yaranan Qaragölün coğrafi mövqeyinə gəldikdə, Azərbaycan coğrafiyaşünası X. C. Zamanovun 1969-cu ildə Bakıda nəşr etdirdiyi *"Kiçik Qafqazın gölləri və anbarlarının su balansı"* adlı kitabında bu gölün yerləşdiyi coğrafi məkan aydın şəkildə göstərilmişdir. Həmin kitabda müəllif qeyd edir ki, Kiçik Qafqazda Qaragöl adlanan bir çox su hövzələri mövcuddur.Bunlardan biri də Pəriçınqıl dağının (3027m) yaxınlığında, Böyük İşıqlı dağının ətəyində yerləşən Qaragöldür. Qaragölün hövzəsi oval şəkillidir (Zamanov, 1969, s.

130-131). Bu göl şimaldan Bozdağ və Göydağla, şimali-qərbdən Dəmirdaş və Kiçik İşıqlı dağları ilə, cənubdan Keçəldağ və şərqdən alçaq moren tirəsi ilə əhatə olunmuşdur. Gölün uzunluğu1950 metr, maksimal enliyi 1250 metr, orta eni 800 metr, maksimal dərinliyi 9,5 metrdir (Məmmədov, Aliyev, Salamov, 2019, s. 283-284). X. C. Zamanov apardığı tədqiqatlar nəticəsində gəldiyi qənaətə görə gölün qidalanmasında əsas yeri onun hövzəsinə düşən atmosfer yağıntıları təşkil edir (Zamanov, 1969, s.131).

Tarixi – coğrafi nöqteyi-nəzərdən Qaragöl və ətrafı ərazilər tarixən Azərbaycan dövlətlərinin tərkib hissəsi olmuşdur. Gölün ətrafında 9 kənddə (Qaraqışlaq, Hacılar, Quşçu, Soyuqbulaq, Qılışlı, Mişni və s.) hələ XIII əsrdən Çələxçu tayfasının nümayəndələri yaşamışlar. Burada ibadət üçün məscidlər olmuş, ölənlər Qanlıca və Qaraməmmədli müsəlman qəbristanlıqlarında dəfn edilirdilər. Orta əsrlərdən başlayaraq yaxın keçmişədək Qaragöl həm də azərbaycanlı sakinlər üçün müqəddəs pir sayılırdı və gölün sahilindəki Çıraqdaşına ibadət edirdilər. Gölün ətrafındakı dağlar (Keçəl dağ, Böyük İşıqlı dağ, Sarı dağ, Göy dağ, Dəmirdağ, Bozdağ) və otlaqlar (Ayı Dərəsi, Əyriqar, Qanlıca, Dəlijəli, Yolaşan) Azərbaycan türk adları daşıyırlar (Həsənli, https://novator.az/2021/09/16/qaragol-arayisi).

**2. Qaragöl ətrafı ərazilər 1920-ci illərdə**

1918-ci ilin mayında Cənubi Qafqazda 3 müstəqil dövlət -Azərbaycan Xalq Cümhuriyyəti, Ararat Respublikası, Gürçüstan Demokratik Respublikası yarandıqdan sonra siyasi gündəmdə olan ən mürəkkəb məsələlərdən biri də bu respublikalar arasında sərhəd məsələləri olmuşdur. Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə bütün Zəngəzurun, o cümlədən Qaragöl ətrafı ərazilərin Azərbaycanın tərkibində şəksiz mövcudluğu təmin edilmişdir. 1920-ci ilin aprelin 28-də AXC XI Qırmızı Ordu tərəfindən işğal edildi və Azərbaycanda sovet hakimiyyəti quruldu. Qonşu Ermənistanda və Gürcüstanda hələ menşevik və daşnak hökumətləri qalmaqda idi və bolşeviklər bu faktı nəzərə alaraq müəyyən dövr Azərbaycanın AXC-dən qalan sərhədlərini tanımalı oldular. Çünki Sovet Rusiyası Azərbaycan SSR-i öz platsdarmı hesab edirdi və ondan Ermənistanın və Gürcüstanın sovetləşməsində istifadə etməyi hədəfləyirdi. Bu səbəbdən, 1920-ci ilin yayında hələ Azərbaycan SSR AXC sərhədlərində mövcud olmuşdur. Əldə olunan arxiv sənədindən də göründüyü kimi, 1920-ci ilin avqust ayında Azərbaycan SSR-lə Ermənistan arasında mübahisəsiz dövlət sərhəddi aşağıdakı xətt üzrə keçirdi (ARPİİİSSA, fond 1, liste 31, dosya 186a, v.15): şimaldan Borçalı və Qazax qəzalarının köhnə inzibati sərhəddi üzrə cənuba doğru Qazax qəzasının Aleksandropol və Yeni - Bəyazit qəzaları ilə köhnə inzibati sərhəddi boyunca Maralca dağına qədər və oradan Çubuxlu kəndinin şərqindən 1,5 km aralıqda düz xəttlə Göyçə gölünə enir və Göyçə gölünü yarı bölərək onun cənub sahili ilə qərbə istiqamətlənmişdir. Göyçə gölünün cənub sahilində sərhəd Zağalı

və Gödək Bulaq kəndləri arasından başlayaraq, sonra yuxarı istiqamətlənir, Yarpızlı, Qızıl Vəng və Yuxarı Alçalı kəndlərindən keçərək Göyçə gölünün cənub sahilinin dağlıq hissəsinə çatır və oradan təqribən Qızıl Xaraba və Ərmağan dağlarının zirvəsi ilə İrəvan və Yeni Bəyazit qəzalarının sərhəddindəki Kiçik Ağdağ dağına çatır. Beləliklə, müsəlmanların məskunlaşdığı dağlıq ərazilər erməni kəndlərinin yerləşdiyi Göyçə gölünün sahil zolağından ayrılır. Ondan sonra sərhəd Kiçik Ağdağ dağından şimal - qərb istiqamətində Toğmağan gölə istiqamətlənir və oradan qərb istiqamətində Təzəkənd kəndinə, ondan sonra Gərni-çay çayı ilə Yuxarı Ağbaş kəndinə qədər uzanır. Yuxarı Ağbaş kəndinə çatmamış sərhəd şimala burulur, dağ zirvəsinə çatdıqdan sonra oradan cənub-qərbə Uluxanlıya istiqamətlənir və Uluxanlı kəndi ilə Uluxanlı dəmiryolu stansiyası arasındakı ərazidən keçərək Araz çayına yönəlir və Rəncbər çayının şimalında Araz çayına çatır (ARPİİİSSA, fond 1, liste 31, dosya 186a, v.15). Rəncbər kəndindən başlayaraq sərhəd Araz çayı ilə qərbə gedir və o bölgədə sərhədlər Sürməli qəzasının Üçmüədzin və Qars vilayətinin köhnə inzibati sərhədləri ilə köhnə Rusiya – Osmanlı sərhəddində yerləşən Tandürək dağına qədər uzanır (ARPİİİSSA, fond 1, liste 31, dosya 186a, v.16). Bu sənəddən göründüyü kimi, bütün Zəngəzur, o cümlədən Qaragöl 1920-ci ilin yayında Azərbaycan SSR-in tərkib hissəsi idi.

1920-ci ilin payızında daşnak Ermənistanının sovet hakimiyyətini qəbul etməsi üçün Moskva şirnikləndirici siyasət aparırdı və Ermənistanın sovetləşməsi ərəfəsində Sovet Rusiyası rəhbərliyi İ.Stalinin ağzı ilə 1920-ci il noyabrın 9-da Bakıda Zəngəzur və Naxçıvanın gələcək taleyi ilə bağlı bəyanatlar verdi. Stalin öz çıxışında deyirdi: “Zəngəzur vadisinin və Naxçıvanın kimə məxsus olmağını öyrənmək istəyirlərsə, Ermənistanın indiki hakimiyyətinə onları vermək olmaz, sovetləşdikdən sonra isə mümkündür” (Ermənistanın Azərbaycana qarşı torpaq iddiasını Stalin dayandırdı). Bu bəyanatın mahiyyəti ondan ibarət idi ki, Ermənistan Sovet hakimiyyətini qəbul edərsə, bu ərazilər ona veriləcəkdi. 1920-ci il noyabrın 29-da Ermənistan SSR elan edildikdən bir gün sonra Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun bəyanatına əsasən Zəngəzur və Naxçıvan Ermənistan SSR-nin ərazisi elan edilmişdir. 1921-ci il iyulun 16-da Qafqaz Cəbhəsinin bolşevik qüvvələri Zəngəzurun yuxarı və qərb dağlıq hissəsini də ələ keçirdilər və beləliklə, Zəngəzur 2 hissəyə bölünmüş oldu: Qərbi Zəngəzur Sovet Rusiyası tərəfindən Sovet hakimiyyətini qəbul edən erməni bolşevik-daşnak qüvvələrinə hədiyyə edildi, Zəngəzurun şərq hissəsi isə Azərbaycan SSR-in tərkibində qaldı. 1921-ci ilin sərhəd müzakirələrində Qaragöl birmənalı olaraq Azərbaycan ərazisi kimi qəbul edilmişdir (Həsənli, https://novator.az/). 1920-ci illərdə SSRİ-də “korenizasiya” (yerliləşdirmə) siyasəti

həyata keçirilməyə başlandı. Bu siyasət azsaylı xalqların guya etnik kimliyinin və mədəniyyətinin qorunmasına və inkişafına xidmət etməli olduğu halda, mahiyyət etibarı ilə müttəfiq respublikaların tərkibində kiçik etnik qurumlar yaradaraq bu respublikaların siyasi rəhbərliyinə təzyiq etmə alətinin yaradılmasına yönəlmişdi.

1923-cü il iyul ayının 21-də S.M.Kirovun təşəbbüsü ilə Az.SSR XK Soveti tərəfindən Kürdüstan qəzası yaradıldı. Qeyd edək ki, qəza əhalisinin 92, 5% -nin ana dili Azərbaycan türk dili idi, yalnız 6,1 % kürd dilində danışırdı (Vsesoyuznaya perepis' naseleniya, www.etno-kavkaz. narod.ru/kurdistan 26./html). 1918-ci ildən meydana çıxan Qarabağ problemi Azərbaycanın sovetləşməsindən sonra da davam etdi və 1921-ci il iyul ayının 5-də RK(b)P-nın Qafqaz Bürosunun iclasında Qarabağın dağlıq hissəsinin Azərbaycan SSR-in tərkibində saxlanılması haqqında qərar qəbul edildi və inzibati mərkəzi Şuşa şəhəri olmaqla ona geniş muxtariyyət verilməsi qərara alındı (K istorii obrazovaniya Nagorno - Karabakhskoy avtonomnoy oblasti Azerbaydanskoy SSR, 1989, s.59). 1923-cü il iyulun 7-də Az.SSR MİK tərəfindən DQMV-nin yaradılması haqqında Dekret veriildi. Qərbi Zəngəzurun işğalı və Ermənistan SSR-ə birləşdirilməsi, Az.SSR-in tərkibində Kürdüstan qəzasının və Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması və onların sərhədlərinin təyin olunması məsələləri, həm Azərbaycan SSR-in Qarabağ ətrafı qəzaları arasında, həm də qonşu Ermənistanın Zəngəzur qəzası ilə sərhəd mübahisələrinə səbəb oldu. 1924-cü il 26 noyabr tarixində DQMV-i haqqında Əsasnamə qəbul edildi. DQMV-nin və Kürdüstan qəzasının yaradılması, onların inzibati sərhədlərinin müəyyən olunması fonunda Qarağöl ətrafında ərazi mübahisələri yenidən gündəmə gəldi.

İnzibati sərhədlərin müəyyən olunmasını çətinləşdirən amillərdən biri də bu bölgədə əsrlərlə yaşayan Azərbaycan türk əhalisinin böyük əksəriyyətinin yarımköçəri maldarlıqla məşğul olması idi. Bəzi mənbələrdə əhalinin 40 faizinin yarımköçəri həyat sürməsi faktı göstərilmişdir (ACDA, fond 2502, liste 2, dosya 20, v.54,91).Sovet hakimiyyəti qurulduqdan sonra düzəngah ərazilərdə yaşayan köçərilərin oturaq əkinçilik mədəniyyətinə keçirilməsi və dağ zonasında yaşayanlar üçün isə “dağ alp” təsərrüfat formalarının yaradılması məsələləri müzakirə olunmağa başladı. Köçəri maldarlığın əkinçiliyə və dağ təsərrüfat formasına keçməsi ilə bağlı müzakirələrin başlanması və tədricən həyata keçirilməsi ilə bağlı azərbaycanlılara məxsus bir sıra yaşayış məntəqələri və yaylaq yerləri Ermənistan tərəfdə qaldı. Belə ki, Şuşa qəzasının Torpaq şöbəsinin müdiri Roqozinin 26 iyul 1923-cü il tarixli hesabatında göstərilir ki, Zəngəzur və Şuşa qəzalarının köçəri maldarları arasında sərhəd mübahisələrinin həll olunması zamanı silahlı qarşıdurmanın yaranmaması üçün azərbaycanlıların 20 ildən artıq istifadə etdiyi sahələr Ermənistanın Zəngəzur qəzasına verilmişdir. Hesabatda göstərilirdi ki,

sərhəd məsələsinin yoluna qoyulmaması əslində qeyri-normal haldır. Çünki, bəzi təxribatçı elementlər bulanıq suda balıq tuturlar, əhalini qızışdırırlar, erməni və müsəlmanlar arasında milli ədavət yaradırlar (Niftaliyev, 2010, s. 193).

1924-cü il dekabrın 25-də AKP(b) MK-nin iclasında M.B.Qasımovun hesabatı dinlənildi. Hesabat Azərbaycan SSR-in Qubadlı qəzası ilə Ermənistan SSR-in Zəngəzur qəzası arasında sərhəd mübahisələrinə həsr olunmuşdu. Məruzəçi iclas iştirakçılarının nəzərinə çatdırdı ki, 13 müsəlman kəndinin - Şahverdilər, Ağbulaq, Şırnıx, Şəmsus, Qurtalax, Fərican, Almalıx, Zor, Təhyan, Qoyyan, Hacı Qurbanlı, Firudinbəyli, Aktbu kəndlərinin sakinləri şikayətlə müraciət edərək, Cənubi Qafqaz MİK-nin komissiyasının qəzalar arasında təyin etdiyi sərhədlərdən narazı olduqlarını bildirmişdilər. Sənəddən məlum olur ki, adı çəkilən kəndlər Ermənistan SSR-in Zəngəzur qəzasının tərkibinə verilmişdir. Ancaq Azərbaycan Kommunist Bolşevik Partiyasının Mərkəzi Komitəsi azərbaycanlı kəndlilərin şikayətlərinə biganə yanaşaraq onları rədd etmiş və qərara almışdır ki, Cənubi Qafqaz MİK-nin qərarı həyata keçirilməlidir (Niftaliyev, 2010, s. 193). Adı çəkilən kəndlərin Ermənistana verilməsi ilə erməni tərəfi Qaragöl və ətraf ərazilərə daha da yaxınlaşdı və yeni ərazi iddiaları irəli sürməyə başladı. Alagöl və yaxud Alagöllər ətrafında yerləşən yay otlaqları (sahəsi 12000 desyatin) Azərb.SSR-in Qubadlı qəzasının Ermənistanın Dərələyəz və Yeni Bəyazid qəzaları ilə sərhəd bölgəsində yerləşirdi və Ermənistan SSR bu sahəyə də iddialar irəli sürdü. Hətta Ermənistan 1923-cü ildə bu sahənin Yeni Bəyazid qəzasının tərkibinə qatılması haqqında məsələ qaldırmışdı (Niftaliyev, 2010, s. 194).

1926-ci il 23 iyun tarixində Ermənistan SSR MİK-nin sədri Azərbaycan SSR MİK-nin sədrinə teleqram göndərdi. Teleqramda deyilirdi ki, guya hələ 1921-ci ildə Allagöllər adlı otlaq sahəsi (13170 desyatin) Ermənistanın Dərələyəz qəzasına verilmişdir (ACDA, fond 2502, liste 2, dosya 26, v.86 arxası).1926-cı il 5 iyul tarixində Azərbaycan SSR MİK-nin Rəyasət Heyətinin katibliyinin Ermənistan MİK-nin katibliyinə göndərdiyi cavabda xahiş olunurdu ki, erməni tərəfinin 23 iyun 1926-cı il tarixli teleqramında istinad etdiyi Alagöllər adlı otlaq sahəsinin Dərələyəz qəzasına verilməsi haqqında Cənubi Qafqaz MİK-nin qərarının nə vaxt, hansı tarixdə verilməsi haqqında məlumat versinlər (ACDA, fond 2502, liste 2, dosya 26, v.86 arxası).

Buna bənzər sorğu Azərbaycan MİK-nin katibliyi tərəfindən 1926-cı il 25 dekabr tarixində bir də göndərildi, ancaq Ermənistan MİK-nin katibliyi tərəfindən sorğuya heç bir cavab verilməmişdir. Eyni zamanda, Cənubi Qafqaz MİK-nin Torpaq Komissiyası tərəfindən 1926-ci il 9 oktyabr tarixində Azərbaycan SSR Xalq Torpaq Komissarlığına sorğu göndərildi

və sorğuda xahiş olunurdu ki, Alagöl otlaq sahəsindən respublikanın hansı kənd cəmiyyətlərinin istifadə etməsi haqqında məlumat verilsin. Azərbaycan SSR Xalq Torpaq Komissarlığı Cənubi Qafqaz Torpaq Komissiysına bilavasitə cavab göndərmədi, ancaq Azərbaycanın MİK-nə 18 dekabr 1926-cı il tarixdə göndərdiyi teleqramda sorğulanan məsələ ilə bağlı məlumat verildi. Verilən məlumatlarda deyilirdi ki, Alagöl sahəsi 1925-1926-cı illərdə və ondan öncəki dövrlərdə Azərbaycan SSR Ağdam rayonunun Kəbirli kəndinin maldarlarının ixtiyarında olmuşdur (ACDA, fond 2502, liste 2, dosya 26, v.86 arxası). Qeyd etmək lazımdır ki, erməni tərəfinin cəhdlərinə baxmayaraq Cənubi Qafqaz MİK-si 18 fevral 1929-cu il tarixli qərarı ilə Alagöllər ətrafındakı yay otlaq sahələrinin Azərbaycan SSR-in Qubadlı qəzasının tərkibində saxlanılması haqqında qərar qəbul etmişdir (ACDA, fond 2502, liste 2, dosya 26, v.97 arxası).

Qubadlı qəzasının Zəngəzur qəzası ilə mübahisəli ərazilərindən biri də Dağ rayonunun (indiki – (Ermənistan Respublikası ərazisində Tex kəndi) 9 adda torpaq sahəsi üzrə idi ki, onun da ümumi sahəsi 1062, 26 desyatinə bərabər idi. Cənubi Qafqaz MİK-nin Kiçik Rəyasət Heyətinin 7 noyabr 1928-ci il tarixli qərarına əsasən Zəngəzur qəzasına 361,3 desyatin, Azərbaycanın Qubadlı qəzasına isə 703,96 desyatin torpaq verildi (ACDA, fond 2502, liste 2, dosya 26, v.88 arxası). 1928-ci ildən sonra kolxozlar yaradılan zaman Qaragöl yaylağı Laçın rayonunun 3 nömrəli yay otlaq yeri kimi qeyd edilmiş və bu ərazinin Qaraqışlaq kəndinin Telman adına kolxoza məxsus olduğu göstərilmişdir (Rəşad, https://525.az/news). 1927-1929-cu illərdə Ermənistan SSR-lə sərhədlər dəqiqləşdirilən zaman Qaragöl Azərbaycanın ərazisi kimi xəritələrə düşmüşdür və 18 fevral 1929-cu il tarixdə Cənubi-Qafqaz MİK tərəfindən bu fakt təsdiqlənmişdir. O vaxt göl rəsmi olaraq “Qaragöl” adlandırılırdı və “Selviç” adı sonralar ermənilər tərəfindən işlədilmişdir. Qaragöl ətrafında əsas çoğrafi məntəqələr kimi Keçəl dağ, Sarı dağ, Böyük İşıqlı dağı, Kiçik İşıqlı dağı, Dəmirdağ, Bozdağ və Ayı Dərəsi, Əyriqar, Qanlıca, Dəlicəli, Bozdağ kimi yaylaq yerləri göstərilmişdir (Həsənli, https://novator.az). Həmçinin onun ətraf ərazilərində Qaraməmmədli və Qanlıca kimi qəbristanlıqlar da qeyd olunmuşdur. Bütün bu adı çəkilən yerlər 1920-ci illərin sonunda SSRİ Geodeziya və Kartoqrafiya idarəsi tərəfindən hazırlanan xəritələrdə əks olunmuşdur. Bu xəritələr Moskvada və Tiflisdə çap olunmuşdur və qeyd etmək lazımdır ki, çap zamanı bir sıra texniki xətalara yol verilmiş, xəritə cizgiləri bəzi hallarda göstərilən koordinatlardan kənara çıxmışdır.

Cənubi Qafqaz MİK-nin 18 fevral 1929-cu il tarixli qərarına əsasən Azərbaycan SSR-in Cəbrayıl qəzasının Nüvədi, Yeynadzor və Tuğut kəndləri Ermənistan SSR-in Mehri qəzasına verildi. Həmin tarixli qərara əsasən, Ermənistanın Zəngəzur qəzasının Cəbrayıl qəzasının 21 türk kəndinə olan iddiaları rədd edildi və bu kəndlər Azərbaycan SSR-in tərkibində saxlanıldı

(ACDA, fond 2502, liste 2, dosya 20, v.98 arxası). Cənubi Qafqaz MİK Rəyasət Heyətinin 18 fevral 1929-cu il tarixli iclasının 3 saylı protokolundan çıxarışda göstərilir ki, “Alagöllər”adlı və sahəsi 12 min desatin olan yay otlaq sahələri Ermənistan SSR-in Dərələyəz qəzası ilə mübahisəli idi və bu ərazinin Azərbaycan SSR-nin Kürdüstan qəzasına verilməsi qərara alınmışdır (ACDA, fond 2502, liste 2, dosya 33, v.59 arxası). Bu iclasda həmçinin Kürdüstan qəzası ilə Ermənistan SSR-nin Zənqəzur qəzası arasında inzibati-təsərrüfat sərhəd xətlərinin çəkilməsi ilə bağlı qərar qəbul edilmişdir. Qərarda deyilirdi ki, bu iki qəza arasında 1928-ci ilin 24-28 avqust tarixində yay otlaq sahələrinin sərhədləri aşağıdakı kimi təyin edilmişdir: Xəzinəvar çayının yarğanından başlayaraq Buzovçu-dərədən keçərək çayla üzü yuxarı Canalı gölə və Xəzinəvar çayının mənbəyinədək; oradan Canalı gölün şimal-şərq küncündən, onun şərq sahili boyunca sahilin ortasınadək və oradan düz xətlə Canalı gölün və Qaragölün düz ortasından keçərək Kiçik İşıqlı dağına qədər. Bundan sonra cənubi-qərbə, yəni Işıqlı dağının beli ilə kurqandan keçərək (kurqanın hündürlüyü 1571 sajen) başqa kurqanadək. Bundan sonra şimalı-qərbə həmin İşıqlı dağının beli ilə Böyük İşıqlı dağının zirvəsindən keçərək triqonometrik punkt, (hündürlüyü 1670 sajen) və 2 kurqandan keçərək Kilisalı dağının zirvəsindəki təpəyədək (ACDA, fond 2502, liste 2, dosya 33, v.59 arxası). Bu yerdən şimali-qərbə doğru həmin dağın beli ilə gedərək təpədən keçərək Karvansaray adlı yerə qədər və oradan Qızıltəpə dağının zirvəsinədək (bu dağı Salbi dağ da adlandırılır) (hündürlüyü 198,47 sajen). Bundan sonra, Qızılböğaz yalının suayrıcı beli ilə triqonometrik punkdan keçərək, Cənub Qızılboğazadək (hündürlüyün – 1696,0 sajen) və oradan Şimal Qızılboğaz dağının triqonometrik punktuna qədər (hündürlüyü – 1684,85 sajen) (ACDA, fond 2502, liste 2, dosya 33, v.59 arxası).

Bu punkdan əvvəlcə dağın beli ilə aşağı təpəyə qədər, sonra yarğana, yarğanla üç təpə keçdikdən sonra yarğanın Alagöllər gölü ilə birləşdiyi yerə qədər. Bu yerdən adı çəkilən gölü düz xəttlə keçərək, təpəyə qədər davam edir. Buradan köhnə 50 saylı polis sahəsinin sərhəddi ilə Pəri-çınqıl adlı daşlıq ərazinin qırağı ilə yarımdairə şəklində kurqanlardan keçərək bir neçə kurqan keçdikdən sonra düz xəttlə Pəri-çınqıldan keçir və Uzun Yal dağına qədər. Uzun Yaldan sonra cənubi-qərbə doğru 4 kurqan keçdikdən sonra Ayrısu dağına qədər, oradan isə 3 kurqan keçdikdən sonra Dəvə gözü dağ silsiləsi ilə Dəvə gözü dağının zirvəsinə qədər (ACDA, fond 2502, liste 2, dosya 33, v.60).

Zəngəzur qəzasının Xəzinəvar kəndi ilə Kürdüstan qəzasının Hacılı, Sadınlar və s. kəndləri arasında mübahisəyə gəldikdə, bu qəzaların icraiyyə komitələrinin sədrlərinə göstəriş verildi ki, 4 ay ərzində torpaqlardan bərabər istifadə etmə hüququ əsasında bu mübahisəli

məsələni nizamlasınlar və öz qərarlarını Cənubi-Qafqaz MİK-nin torpaq və meşə mübahisələrinin həlli üzrə komissiyasına təqdim etsinlər. 18 fevral 1929-cu il tarixli iclasda Azərbaycan SSR-nin Cəbrayıl qəzasının Nüvədi, Yeynadzor və Tügüt kəndlərinin torpaq əraziləri ilə birlikdə Ermənistan SSR-nin Mehri qəzalarına verilməsi haqqında qərar qəbul edildi (ACDA, fond 2502, liste 2, dosya 33, v.60 arxası).

1929-cu il 18 fevral tarixdə keçirilən Cənubi Qafqaz MİK-nin iclasında (protokol №3) qəbul olunan qərarda Qaragöldən keçən sərhəd xətti aydın şəkildə göstərilmişdir (ACDA, fond 2502, liste 2, dosya 33, v.59 arxası). Həmcinin, Cəbrayıl qəzasının türk əhalisinin yaşadığı 21 kəndin - Şanfli, Qırğılı, Nəcəflər, Qaragöl, Çuxuryurd, Yuxarı Kənlik, Təzə kənd, Birinci Kəli, Cambar, Şarıkan, Ağ kənd, Kəli, Kun, Qışlaq, Pirveysli, Burunlu, Burcanlar, Seyidlər, Aşağı Kolaklı, Qazança və Tullu-kitax kəndlərinin Azərbaycan SSR-nin Cəbrayıl qəzasının tərkibində saxlanılması haqqında qərar verildi. Cənubi Qafqaz MİK-nin yuxarıda adı cəkilən komissıyasına tapşırılırdı ki, qərarə əsasən Ermənistan SSR-in Zənğəzur və Mehri qəzaları ilə Azərbaycan SSR-in Cəbrayıl qəzası arasında sərhəd müəyyən edilsin və bütün mübahisəli məsələlər yerində həll edilsin (ACDA, fond 2502, liste 2, dosya 33, v.60).

### 3. Qaragöl məsələsi 1930-cu iillərdə

1930-cu illərdən başlayaraq Ermənistan SSR də Qaragöl ətrafı yaylaqlara iddia etməyə başladı. Nəticədə olaraq, 1934-cü ildə 200 ha yaxın ərazi Ermənistana verilmişdir (Həsənli, // https: //novator.az/2021/09/16/qaragol-arayisi/). 1938-ci il mart ayının 5-7-də Azərbaycan SSR və Ermənistan SSR arasında sərhədlərlə bağlı protokol imzalandı. Həmin protokola əsasən Qubadlının Çayzəmi adlanan sahəsi, Qazax rayonunun Kəmərli kəndinin ərazisinin bir hissəsi, Kəlbəcər rayonuna məxsus Zod adlanan ərazi və Laçın rayonunda yerləşən Qaragöl yaylağı, Ermənistana verildi (Əziz, https:// moderator.az). Azərbaycan SSR MİK Rəyasət Heyəti 5 may 1938-ci il tarixli iclasında (protokol №59) Azərbaycan SSR sərhədlərinin qrafiki cızılması haqqında qərar qəbul etdi. Bu qərar Azərbaycan SSR, Cürcüstan SSR və Ermənistan SSR nümayəndələrinin 5-7 mart 1938-ci il tarixli toplantısında 3 respublika arasında sərhədlərlə bağlı qəbul etdikləri qərara əsasən qəbul edilmişdir və bu sərhədlər Gürcüstan SSR və Ermənistan SSR tərəfindən təsdiqlənmişdir (ACDA, fond 379, liste 1, dosya 7345, v.2). 1938-ci il martın 5-7-də Azərbaycan SSR, Cürcüstan SSR və Ermənistan SSR MİK-nin və Xalq Torpaq Komissarlıqlarının nümayəndələrinin ümumi respublika toplantısı keçirildi. Toplantı Tiflis şəhərində keçirildi və burada Azərbaycan SSR MİK-ni Millətlər şöbəsinin müdiri, İsaxanyan təmsil edirdi (ACDA, fond 379, liste 1, dosya 7345, v.6). Həmin iclasın protokoluna Azərbaycan tərəfdən İsaxanyan qol çəkmişdir və protokolun doğruluğunu Qadakçıyan təsdiqləmişdir (ACDA, fond 379, liste 1, dosya 7345, v.6). Ermənistan SSR-nin MİK-nin sədri

Qalustyan, Gürcüstan SSR isə təlimatçı Çarekişvili təmsil edirdi. Bundan savayı, toplantıda respublikaların Xalq Torpaq komissarlıqlarının nümayəndələri də iştirak edirdi. Azərbaycan SSR XTK-nı iclasda Torpaq idarə rəisi Ağalarzadə təmsil edirdi. Təqdim olunan kartoqrafik materiallara baxdıqdan sonra toplantı 3 respublika arasında insibati sərhədlərlə bağlı bir sıra qərarlar qəbul etdi (ACDA, fond 379, liste 1, dosya 7345, v.6). İclasda, həmçinin Ermənistan SSR-lə Naxçıvan MSSR arasındakı sərhəd məsələsi də müzakirə olundu və qeyd olundu ki, Kərki və Sədərək kəndləri Naxçıvan MSSR-ə məxsusdur və bu fakt belə də xəritədə əks olunmuşdur. Lakin təəssüfedici fakt o idi ki, Kərki kəndi ilə Naxçıvan MSSR-in əsas ərazi arasındakı adda-budda torpaqlar Ermənistan SSR ərazisi kimi göstərilmişdir. Yəni, Ermənistan SSR və Naxçıvan MSSR əraziləri biri-birinin içində göstərilmişdir. Arazdöyən stansiyası ətrafında sərhədlər düz göstərilmişdir və həm Ermənistan MİK, həm də Azərbaycan MİK tərəfindən təsdiqlənmişdir (ACDA, fond 379, liste 1, dosya 7345, v.8). Bundan sonra sərhədlərin dağların zirvələri ilə davam etdiyi göstərilmişdir. Sərhədlər Ermənistan SSR MİK və Azərbaycan SSR MİK tərəfindən materiallarla təsdiqlənmişdir, ancaq xəritə çəkilən zaman xəritədə xətt düzgün əks olunmamışdır. Azərbaycan SSR və Ermənistan SSR arasında digər sərhəd bölgələrinə gəldikdə, Oraşen kəndindən şərqə doğru sərhədlər həm Ermənistan, həm Azərbaycan SSR MİK tərəfindən təsdiqlənib və Güllü Qışlaq kəndi Azərbaycan SSR-ə məxsusdur (ACDA, fond 379, liste 1, dosya 7345, v.8). Çakaren, Maqarjik və Seyidlər kəndləri arasındakı sərhəd xətti də Azərbaycan SSR MİK materialları ilə Ermənistan SSR tərəfindən də təsdiqlənmişdir. Saldan kəndi ətrafında sərhəd xətti Azərbaycan SSR tərəfindən təqdim olunmuş materiallar əsasında Ermənistan SSR MİK və XTK tərəfindən təsdiqlənmişdir. Beləliklə, Saldan kəndinin Azərbaycana məxsusluğu təsdiqlənmişdir (ACDA, fond 379, liste 1, dosya 7345, v.8). Zor kəndi ətrafında sərhəd xətti də həm Ermənistan SSR, həm də Azərbaycan SSR MİK-nin materiallarına əsasən təsdiqlənmişdir. Məzri və Seytas kəndləri ətrafında sərhədlər təsdiqlənərkən Azərbaycan SSR MİK materialları, Zabuğ kəndi ətrafından Ağoğlan və Malva (Həkəri çayı) çaylarının birləşdiyi yerədək sərhəd xətti təsdiqlənərkən isə Ermənistan SSR MİK-nin materialları əsas götürülmüşdür. Oradan cənuba doğru sərhədlər Azərbaycan SSR materiallarına görə təsdiqlənib. Sənəddə göstərilir ki, Ermənistan SSR-in sərhədləri Həkəri çayını keçməməlidir. Malıbəyli və Qaraqışlaq kəndləri tərəfdə sərhədlər, Azərbaycan SSR materialları əsasında təsdiqlənmişdir. Qaragöl ətrafında və ondan cənuba sərhədlər Ermənistan SSR materiallarına görə təsdiqlənmişdir və bu sərhəd xəttinə görə Qaragöl Ermənistan SSR tərəfə düşmüşdür (ACDA, fond 379, liste 1, dosya 7345, v.8). İşıqlı dağından şimali-qərbə sərhəd Zəngəzur dağları ilə davam edir və bu xətt Ermənistan SSR və

Azərbaycan SSR materialları ilə təsdiqlənmişdir. Toplantı iştirakçılarının fikrincə, guya Ermənistan SSR materiallarında Zəngəzur dağları ilə keçən sərhəd xətti (Alagöldən Max dağa, oradan Qoca dağın zirvəsinə və Dəmir dağ ətrafı ərazilərə qədər) daha dəqiq göstərildiyi üçün, sərhəd xətti Ermənistan SSR-in təqdim etdiyi materiallar əsasında təyin edilmişdir (ACDA, fond 379, liste 1, dosya 7345, v.9). Nəticədə, Qaragöl ətrafında bir çox yaylaq yerləri Ermənistan tərəfdə qalmışdır. Çoratan kəndi ətrafında da Ermənistan SSR-in çəkdiyi sərhəd xətti təsdiqlənmişdir və Çoratan kəndi Ermənistan SSR-ə verilmişdir.Əlibəyli kəndindən Çaxmaxlı kəndinədək sərhədlər Ermənistan SSR materialları əsasında, Çaxmaxlı və Mosesqex kəndləri ətrafında sərhədlər Azərbaycan SSR MİK-nin materiallarına görə təsdiqlənmişdir və hər iki kənd Azərbaycan SSR-ə məxsusdur (ACDA, fond 379, liste 1, dosya 7345, v.9). 1942-ci ildə çap olunan xəritələrdə erməni kartoqraflarının saxtakarlığı nəticəsində gölətrafı sərhəd xəttində "sürüşmə" baş vermişdir. Belə ki, sərhəd xətti Kiçik İşıqlı dağı əvəzinə Dəmirdaş dağından keçmişdir və nəticədə, Qaragöl ətrafında Laçın rayonunun yay otlaq sahələrindən 250 ha. Ermənistan tərəfə verilmişdir. Beləliklə, gölün böyük hissəsi Ermənistan tərəfdə qalmışdır (Rəşad, https://525.az/news).

**4. 1950-1980- cı illərdə Qaragölə erməni iddialarının artması və Azərbaycanlı əhalinin müqaviməti**

1950-ci illərdə ermənilərin Qaragölə iddialarının yeni mərhələsi başladı. Erməni iddaları həm də Moskva tərəfindən qızışdırılırdı və milli siyasət yeridən Azərbaycan rəhbərliyinə qarşı bir təzyiq vasitəsi kimi istifadə edilirdi. Hətta, SSRİ Nazirlər Sovetinin 1951-ci il qərarına görə Azərbaycan heyvandarlarına Qaragöl ətrafı yaylaqların bir hissəsindən istifadə etmək qadağan edilmişdi (Həsənli, https: // novator. az). Uzun müddət Azərbaycan tərəfi müqavimət göstərdi, lakin Moskvanın müdaxiləsi nəticəsində vəziyyətlə barışmalı oldu.1938-ci il 5 mart tarixli protokoldakı müddəalar həmin dövrdə tam yerinə yetirilməsə də, ermənilər onu əsasən 1960-cı illərin ikinci yarısında o dövrdəki respublika rəhbərliyinin məsuliyyətsizliyindən istifadə edərək reallaşdira bildilər. 1960-cı illərə qədər Qaragöl yay otlağından Laçın rayon təsərrüfatları istifadə etmişlər və elə həmin dövrdən bu yaylaqdan Ermənistan SSR-in Gorus rayonun təsərrüfatları da istifadəyə başlamışlar. 1964-cü ildə ermənilər gölün ətrafında su nasos stansiyası tikmişlər və göldən erməni təsərrüfatları üçün istifadə etməyə başlamışdılar. Bundan əlavə, erməni tərəfi göldə qiymətli balıq növləri yetişdirməyə başlamışlar və nəticədə, gölün su səviyyəsi get-gedə aşağı düşmüş, suyu çirkləndirmişdir. Laçın rayon rəhbərliyi erməni tərəfinin dağıdıcı fəaliyyətinə göz yumsa da, Laçın rayonunun qabaqcıl ziyalıları Qaragölün müdafiəsinə qalxaraq ermənilərin dağıdıcı fəaliyyəti barədə Azərbaycan Mərkəzi dövlət orqanlarına məlumatlar göndərmişdilər (RDYTA, fond 100, liste5, dosya 652, v.38).1967-ci ilin iyununda

Azərbaycan KP MK-nın II katibi Pyotr Elistratov SSRİ Mərkəzi orqanlarına müraciət etmiş, nəticə olmadığından 1968-ci ilin mayında təkrar müraciət etmişdir (Həsənli, https://novator.az). 1968-ci ilin mayında həm SSRİ Nazirlər Soveti, həm də Sovet İttifaqı KP MK-sı Azərbaycan və Ermənistan rəhbərliyinə tapşırıq verdi ki, Qaragöl ətrafında ərazi mübahisələrini həll etsinlər.

1969-cu ildə "Azərbaycan Kommunisti" jurnalının 10-cu sayında Qaragölün vəziyyəti ilə bağlı Çingiz Mehrəliyevin məqaləsi dərc edilmişdir. Ancaq Azərbaycan SSR Ali Sovetin RH-nin 1969-cu il 7 may tarixli iclasında Qaragölün və yay otlağının böyük hissəsi Azərbaycandan qoparılaraq Ermənistan SSR-ə verilmişdir (Rəşad, https://525.az/news). 1969-cu ildə Vəli Axundovun Azərbaycana rəhbərliyinin son aylarında ermənilər Qaragölün Azərbaycana məxsusluğuna dair sənədlərin doğruluğuna şübhə ilə yanaşılmasına nail oldular və Qaragöl ətrafı ərazilərdə sərhədlərin yenidən baxılmasına başlandı. Laçının Qaraqışlaq və sair kəndlərinin əhalisinin narazılıqlarına baxmayaraq, Qaragöllə bağlı baş verən dəyişikliklər 1969-cu ilin mayında Azərbaycan SSR-in Ali Soveti tərəfindən təsdiqləndi (Həsənli, https://novator.az). H. Əliyev hakimiyyətə gəlməmişdən öncə 1969-cu il mayın 15-də1938-ci ildə Ermənistan SSR ilə Azərbaycan SSR arasında sərhəd xəttinin təsdiqlənməsi haqqında qərar qəbul edildi. Bu qərar Qaragöl ətrafı ərazilərə də sirayət edirdi. Qaragölün adının dəyişdirilərək Selviç adlandırılması nə vaxt baş vermişdir? Qaragölün Ermənistanla bölüşdürülməsi1969-cu ildə rəsmiləşmişdir (RDYTA, fond 100, liste5, dosya 652, v.52). Məsələn, Cənubi Qafqaz MİK-nin 5 mart 1938-ci il sənədlərinə yenidən baxıldı. 1930-cu il xəritələrində Qaragöl ətrafında göstərilən Dəmirdaş məntəqəsi xəritələrdən silindi və nəticədə, sərhədlər bu istiqamətdə 7 km Azərbaycan tərəfə sürüşdürüldü. Nəticədə, Laçın rayonunun ərazisinin bir qismi Ermənistan SSR-in Gorus rayonuna keçdi.

Azərbaycan SSR Ali Soveti RH –nin 1969-cu il 7 may tarixli qərarı ilə 1938-ci ildə qəbul olunan sərhəd dəyişiklikləri təsdiqləndi (Azərbaycan Sovet Sosialist Respublikasının Ali Sovetinin MƏLUMATI, 1969, s.133). Nəticədə, daha 2000 ha torpaq Ermənistana keçməli idi. Lakin 1969-cu il 14 iyul tarixində Azərbaycan KP MK-nın I katibi seçilən H.Əliyev bu qərarın reallaşmasına imkan vermədi (Rəşad, https://525.az). 1970-ci illərdə Laçın rayonunun Qaraqışlaq kənd sakinləri Mərkəzi mətbuat orqanlarına və ilk növbədə "Pravda" və "İzvestiya" qəzetlərinə şikayətlərlə müraciət etdilər, onlardan qeyri-qanuni, yəni faktların saxtalaşdırılması yolu ilə alınan torpaq sahələrinin qaytarılması tələbini irəli sürdülər (Həsənli, https://novator.az). 1973-cü ilin 29-30 avqust tarixində Qaragölə Moskvadan birgə komissiya

gəlmişdir və 1927-1929-cu illər sənədlərinə əsasən gölün Azərbaycana məxsus olduğunu göstərilmişdir (Rəşad, https: // 525. az).

1977-ci ildə SSRİ Nazirlər Soveti xəritələrdə girintili-çıxıntılı yerlərin ləğv olunması haqqında qərar vermişdir. Bu qərarı əsas tutaraq Qaragöl ətrafında girintili-çıxıntılı yerlər Azərbaycan kəndlərinə məxsus ərazilərin Ermənistan tərəfinə qatılması hesabına həll edilirdi. Formal olaraq, kənd camaatının rəyi soruşulmadan, saxta sənədlərlə Laçın rayonunun Telman adına sovxozun torpaqlarını kəsib Ermənistanın Gorus rayonuna vermək istəyirdilər.Qaraqışlaq kənd müəllimləri Çingiz Mehrəliyev və İbiş Əsgərovun fəaliyyəti nəticəsində bu məsələ ictimailəşdirildi, onlar SSRİ-nin Mərkəzi Mətbuat orqanlarına müraciət edərək, bu məsələni dövlət orqanlarının nəzərinə çatdırdılar (Səxavət, https:// yenicag. az). 1982-ci ilin dekabrında H.Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi və Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə K.Bağırov seçildi. Fürsətdən istifadə edərək Ermənistan tərəfi 1983-cü ildən Azərbaycan SSR ilə Ermənistan SSR arasında sərhədlərin yenidən müəyyənləşdirilməsi prosesinə başlamağa müvəffəq oldu (Həsənli, https://novator.az). Ermənistanın Qaragöl ətrafında fəallaşması bu bölgədə yaşayan Laçın rayon sakinlərinin narazılığına səbəb oldu. “Известия” qəzetinin 1986-cı il 29 yanvar tarixli sayında Qaraqışlaq kənd müəllimi Çingiz Mehrəliyevin şikayət məktubu dərc edildi. Məktubda tarixən azərbaycanlılara məxsus otlaq və yaylaq yerlərinin tədricən Ermənistan tərəfindən ələ keçirilməsi faktı göstərilmiş, bu məsələdə Azərbaycan Partiya və Sovet orqanlarının fəaliyyətsizliyinə etiraz ifadə olunmuşdur (Şahsuvarlı, https://bizim. Media az/ read/21310/). “Известия” qəzetinin təsiri ilə Azərbaycan SSR və Ermənistan SSR nümayəndələrindən ibarət Komissiya yaradıldı və 1986-cı il avqustun 7-də bu Komissiya Qaragölə qəldi və məsələnin həlli yolu kimi Qaragölün Dövlət qoruğu elan olunması qərara alındı . Gölün ətrafında yerləşən Laçın rayonunun Qaraqışlaq kənd sakinlərinin və Telman adına sovxozun üzvlərinin müraciətlərini nəzərə olaraq 1987-ci il 17 noyabr tarixində Azərbaycan SSR Nazirlər Soveti Qaragöl Dövlət Qoruğunun yaranması haqqında qərar qəbul etdi. Həmin gün Ermənistan SSR Nazirlər Soveti Sevliç (Qaragöl) Dövlət Qoruğunun yaranması haqqında qərar qəbul etdi (RDYTA, fond 100, liste5, dosya 652, v.37). Göl ədalətsizcəsinə bölüşdürüldü, belə ki, onun 90%- i Ermənistana, 10%-i isə Azərbaycana düşdü və qoruq 1988-ci il yanvarın 1-dən fəaliyyətə başladı (Rəşad, https: //525. az). Beləliklə, 1969-cu ilin vəziyyəti təkrar edildi, yəni Qaragölə tam nəzarət faktiki olaraq Ermənistanın əlinə keçdi. Laçınlilar və ilk növbədə Telman adına sovxozun üzvləri 1983-1988-ci illər ərzində SSRİ Nazirlər Şurasına 21 dəfə teleqram və şikayət məktubları ilə müraciət etmişlər.Bütün bu teleqram və şikayət məktublarında göstərilirdi ki, 1969-cu ildə Azərbaycan SSR və Ermənistan SSR-in birgə yaratdığı Paritet

Komissiya Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin 1927-1929-cu illərdə Qaragölün mənsubluğu ilə bağlı qərarlarına zidd olaraq faktları saxtalaşdırmış, Qaragöl və ətrafındakı otlaq yerlərinin böyük hissəsini Ermənistan SSR-in Görus rayonuna vermişdir (RDYTA, fond 100, liste5, dosya 652, v.52). Moskvaya göndərilən bu şikayətlər baxılmaq üçün yenə geriyə-Azərbaycan SSR Mərkəzi Komitəsinə ünvanlanmışdır və laçınlıların şikayətlərinə baxılmamış, 1988-ci ildən sonrakı dövrdə Azərbaycan rəhbərliyinin başdansovduluğu nəticəsində Qaragöldən istifadə faktiki olaraq Ermənistan SSR-nin ixtiyarına keçmişdir: Ermənistan tərəfindən Qaragölə yollar çəkilmiş, gölün ətrafında tikililər inşa edilmişdir. Azərbaycan tərəfdən isə heç göllə maraqlanan da olmamışdır. Beləliklə, Qaragölün əsas hissəsinin ermənilərə verilməsi prosesi 1980-ci illərin sonlarında yekunlaşmışdır. 1988-1994-cü illərin I Qarabağ savaşından sonra Azərbaycanın Qarabağ bölqəsi ilə birlikdə Şərqi Zəngəzur, o cümlədən Qaragöl ətrafı ərazilər də Ermənistan tərəfindən tam işğal edilmişdi.

**Nəticə**

2020-ci il sentyabrın 27-də başlanan II Qarabağ savaşı nəticəsində Qarabağın böyük hissəsi Azərbaycanın nəzarətinə keçsə də, Qaragöl ətrafı ərazilər Ermənistanın nəzarətində qalmaqda idi. 2021-ci il 14 may tarixli hərbi əməliyyat nəticəsində Azərbaycan Ordusunun Qaragöl və ətrafı əraziləri nəzarətə götürmüşdür. Hal-hazırda İşıqlı Qaragöl Azərbaycanın nəzarətindədir. 1980-ci illərdə Ermənistanın saxta sənədlərlə əldə etdiyi ərazilər SSRİ dağıldığından rəsmiləşdirilməmişdir. Ona görə Azərbaycan Ordusu tərəfindən Qaragöl ətrafı ərazilərin nəzarətə alınması tarixi ədalətin bərpa olunmasıdır. Tarixən Azərbaycana məxsus olan İşıqlı Qaragöl və ətrafı ərazilər 1920-1991-ci illərdə SSRİ rəhbərliyinin apardığı məkrli siyasət nəticəsində mərhələ-mərhələ Azərbaycanın tərkibindən qoparılmış, Ermənistana peşkəş edilmişdir. Təəssüf ki, bütün bu qeyri-qanuni ərazi "dəyişiklikləri" xəritələrə köçürülmüşdür. Bu gün Azərbaycan və Ermənistan respublikaları arasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesində ən çox əngəl yaradan amillərdən biri də Sovet dövrü çap olunan xəritələrdir. Fikrimizcə, Azərbaycandan mərkəzin təzyiqi ilə qoparılan ərazilər Azərbaycana qaytarılmalı və yeni xəritələr bərpa olunmuş tarixi həqiqətləri əks etdirməlidir.

**Kaynaklar**

ACDA , fond 2502, liste2, dosya 33.

ACDA, fond 2502, liste2, dosya 26.

ACDA, fond 379, liste1, dosya 7345.

Azerbaycan Cumhuriyyeti Devlet Arşivi , (kısaca-ACDA) fond 2502, liste 2, dosya 20.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi (kısaca-ARPİİİSSA), fond 1, liste 31, dosya 186a.

Azərbaycan Sovet Sosialist Respublikasının Ali Sovetinin MƏLUMATI. №9. (1969). Azərbaycan SSR Ali Sovetinin nəşri.

*Chto i pochemu proiskhodit na granitse Azerbaydzhana i Armenii?* https://www. Bi-bi-si. com/russian/news-57150521.

*Ermənistanın Azərbaycana qarşı torpaq iddiasını Stalin dayandırdı?* https://1905.az/erm.

Əziz, B. *Qaragölün ermənilərə verilməsi sənədini Azərbaycan tərəfdən İşxanyan imzalayıb.* https:// moderator. Az.

Həsənli, C. *Qaragöl arayışı.* https://novator.az/2021/09/16/qaragol-arayisi/.

*K istorii obrazovaniya Nagorno - Karabakhskoy avtonomnoy oblasti Azerbaydanskoy SSR. 1918 - 1925: Dokumenty i materialy*. (1989). Azerneşriyyat.

Məmmədov, B., Aliyev S. ve Salamov A. (2019). *Azərbaycan Respublikası böyük göllərinin hidrobiokimyəvi xüsusiyyətləri və gölətrafı ərazilərin mühəndis geofiziki şəraiti.* Mütərcim nəşriyyatı.

Niftaliyev, I. (2010). *Azerbaydzhanskaya SSR v ekspansionistskikh planakh armyan (20-ye gody XX veka).* Təhsil neşriyyatı.

*Pashinyan nazval vzryvoopasnoy situatsiyu vokrug Chernogo ozera bliz Azerbaydzhana*. https://www.interfax.ru/world/765873.

Rəşad, M. *Qaragöl, yoxsa Sevlic?*. https://525.az/news/168224-qaragol-yoxsa-sevlic-resad-

Rusiya Dövlət Yeni Tarix Arxivi (kısaca-RDYTA), fond 100, liste5, dosya 652.

Səxavət, M. *Ermənilərin Qaragöl sevdası: "Xəritə üzərində o ərazilər Azərbaycanındır. İki müəllimin SSRİ-nin Fərmanına üsyanı.* https:// yenicag. az/ermenilerin-qaragol-sevdasi-xerite-

Şahsuvarlı, T. *Qaragöl sərhəd gölü deyil: Bəs, Dəmirdaş dağı necə "yoxa çıxıb,* https://bizim.media/az/read/21310/

*Vsesoyuznaya perepis' naseleniya 17-go dekabrya 1926 g,, tom 4, p. 14. Statisticheskoye upravleniye SSSR.Kurdistanskiy uyezd.* (1929). www.etno-kavkaz. narod. ru/kurdistan 26./html.

Zamanov, X. (1969). *Kiçik Qafqazın gölləri və anbarlarının su balansı.* Elm nəşriyyatı.